NORM

**İnsan Resursları üzrə Şirkət Siyasəti**

Biz işçilərimizin şəxsi hüquqlarından tam və düzgün istifadə etməsinə imkan yaradırıq, onlara vicdanla və ədalətlə yanaşır, ayrı-seçkilikdən uzaq, təhlükəsiz və sağlam iş şəraiti təmin edirik. İnsan kapitalının inkişafı üçün imkan yaratmaq məqsədilə lazımi səy göstəririk, sosial maarifləndirmə apararaq öz təşəbbüsləri ilə müvafiq sosial və ictimai fəaliyyətlərin yerinə yetirilməsində onlara dəstək olur; onların şəxsi həyatları ilə peşə həyatlarına hörmətlə yanaşırıq.

Şirkətimiz hər kəs üçün ədalətli iş şəraitinin yaradılması və saxlanmasını ən mühüm prioritetlərimizdən biri hesab edir. İşçilərə hörmətlə yanaşılan və bütün qayda-qanunlara riayət olunan ədalətli, sağlam və təhlükəsiz iş şəraitinin yaratmaqla məqsəd onların əmək qabilyyətini, inkişafını və işə olan sədaqətini yaxşılaşdırmaq və gücləndirməkdir.

Şirkətimiz sement istehsalı sahəsində yeni mütəxəssislərin hazırlanması ilə qeyri-neft sektorunun inkişafına mühüm töfhələr verməkdədir.

Ən yeni və müasir idarəetmə tərzinə sahib olan Şirkətimiz, qoyulan hədəflərimizə çatmaqda bizə köməkçi ola biləcək, yaradıcı, etibarlı, nəticə yönümlü, maraqlı tərəflərə dəyər qatan İnsan Kapitalını tamamilə obyektiv dəyərləndirmə metodları ilə seçir. İşə qəbul prosesi zamanı namizədlər peşə və ixtisasına uyğun vəzifələr üzrə dəyərləndirilir.

Namizədlərin seçimi 3 mərhələ üzrə aparılır.

Birinci mərhələ vakant vəzifə üzrə daxil olan CV(tərcümeyi-hal)-lərin qiymətlədirilməsindən ibarətdir.

Vəzifə tələblərinə uyğun olan şəxslər ikinci mərhələyə müsahibəyə dəvət olunurlar.

Müsahibədən uğurla keçmiş namizədlərə üçüncü mərhələdə iş təklifi edilir.

Əgər siz də öz gələcək karyeranızı NORM MMC-də qurmaq istəyirsinizsə, CV-lərinizi hr@norm.az e-poçt ünvanına göndərə bilərsiniz.

**Baş İcraçı Direktor** **Hasan Yalçınkaya**

**İnsan Resursları və Administrativ işlər üzrə Müdir** **Arzu Abdullayeva**